# Sabir RÜSTƏMXANLI-75



Hörmətli Sabir müəllim!

Sizi - görkəmli sənətkar, Azərbaycanın Xalq şairi və ictimai xadimi 75 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz ədəbiyyata ötən əsrin 60-cı illərində gəlmisiniz və elə ilk əsərlərinizdən özünəməxsus ədəbi üslubu və yolu olan qələm sahibi kimi ədəbi ictimaiyyətin diqqətini çəkmisiniz. "Tanımaq istəsən" adlı ilk kitabınız 1970-ci ildə çap olunmuş, maraqla qarşılanmışdır. 70-80-ci illərdə oxuculara təqdim olunmuş "Xəbər gözləyirəm", "Gəncə qapısı", "Sağ ol, ana dilim", "Qan yaddaşı" və s. kitablarınızın da taleyi uğurlu olmuşdur. Kitablardakı şeirlər mövzuca yeni, bədii xüsusiyyətlərinə görə sənətkarlıq nümunələridir. Yaradıcılığınızın ikinci mərhələsində irihəcmli nəsr əsərlərinə geniş yer vermisiniz. Bu əsərlər Azərbaycanın ən qədim tarixindən başlayaraq xalqımızın keçdiyi yola işıq tutan bir silsilədir. "Xətai yurdu", "Göy Tanrı", Azərbaycanın xanlıq dövründən bəhs edən "Ölüm yaşamaqdan şirinmiş" ("Cavad xan"), "Ölüm zirvəsi", "Difai fədailəri", "Sunami" kimi tarixi romanlarınızda böyük bir tarixi dövrü əhatə etməklə bərabər, uzun müddət xalqın özündən gizlədilən, təhrif edilən həqiqətləri yüksək sənətkarlıqla oxuculara çatdırmısınız. "Ömür kitabı"nız publisistik janrın dəyərli nümunəsidir. Çoxşaxəli yaradıcılığınızda ədəbi-tənqidi yazılara və araşdırmalara da yer verirsiniz. "Bu, sənin xalqındır" kitabına məhz bu səpkili əsərləriniz daxil edilmişdir. Bədii tərcümə və ekran sənəti də yaradıcılığınızın məhsuldar tərəflərindəndir. Tərcümə kitablarınız çap olunmuş, ssenariləriniz əsasında çox sayda sənədli və televiziya filmi çəkilmişdir. Bu vaxta qədər 30-a yaxın şeir, nəsr, publisistik və tərcümə kitabınız nəşr edilmişdir. Əsərləriniz bir çox dünya xalqlarının dilinə tərcümə olunmuş, Rusiyada,Türkiyədə, İsveçdə işıq üzü görmüşdür.

Siz 1988-ci ildə Azərbaycanda başlayan milli azadlıq hərəkatının ideoloqlarından biri olmusunuz. 1990-cı ildən günümüzədək keçirilən parlament seçkilərində millət vəkili seçilmisiniz. 1992-ci ildən yaratdığınız Azərbaycan Vətəndaş Həmrəyliyi Partiyasının sədrisiniz.

Siz Dünya Azərbaycanlıları Konqresi Məclisinin həmsədrisiniz. Bu sahədə də fəaliyyətiniz diqqətəlayiqdir. Xidmətləriniz yüksək qiymətləndirilmiş, 1989-cu ildə M.F.Axundov adına Dövlət mükafatına, "Azərbaycanın Xalq şairi" (2015) fəxri adına layiq görülmüsünüz.

1963-cü ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuş, 1968-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmisiniz. Əmək fəaliyyətinə tələbəlik illərindən başlamış, 1967-ci ildə Azərbaycan Yazıçılar İttifaqının orqanı olan "Ədəbiyyat və incəsənət" qəzetində işə qəbul edilmisiniz. Bu sırada elmi işlə də məşğul olmuş, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasını bitirmisiniz. 1976-cı ildə "Molla Nəsrəddin" və folklor" mövzusunda dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi elmi dərəcəsinə yiyələnmisiniz. 1978-ci ildən "Yazıçı" nəşriyyatında şöbə müdiri, baş redaktorun müavini, baş redaktor, 1989-1991-ci illərdə "Azərbaycan" qəzetinin baş redaktoru olmusunuz. 1991-ci ildə Azərbaycan Respublikası Dövlət Mətbuat Komitəsinin sədri, 1992-1995-ci illərdə Mətbuat və İnformasiya naziri vəzifələrində çalışmısınız.

Hörmətli Sabir müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**